**KAMRAN İMANOV**

# İNNOVASİYA VƏ YARADICILIQDA QADINLAR: DƏYİŞİKLİYİN APARICI QÜVVƏSİ

**Bakı – 2018**

**Kamran İmanov,**

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri.

**İnnovasiya və yaradıcılıqda qadınlar: dəyişikliyin aparıcı qüvvəsi. Bakı, 2018**

Bu kitabça Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun Müəllif Hüquqları Agentliyinin Azərbaycan Respublikası Ailə, Qadin və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş, 26 aprel – Beynəlxalq Əqli Mülkiyyət Günü münasibətilə 23 aprel 2018-ci il tarixində keçirilən “İnnovasiya və yaradıcılıqda qadınlar: dəyişikliyin aparıcı qüvvəsi” mövzusunda dəyirmi masada etdiyi eyniadlı çıxış sözü və prezentasiya əsasında hazırlanmışdır.

**© Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi, 2018**

**© Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi, 2018**

# Mündəricat


Çıxış sözü ..................................................... 5

I. Gender faktorlarının iqtisadi inkişafa təsiri .... 15

II. Gender faktorlarının iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə və innovativliyinə təsiri ............................................................... 16

III. Dünya İqtisadi Forumunun «Gender fərqliliyi İndeksi» (GFİ) və BMT-nın «Gender Bərabərsizliyi İndeksi» (GBİ) ......................... 18

IV. ÜƏMT-nın və UNESCO-nun materiallarında istiqamətlər üzrə gender bərabərsizliyi ......... 22

V. İxtiraçı qadın təbəqəsi ................................... 28

VI. Rəqəmli gender fərqliliyi ................................ 30

VII. Azərbaycanda Təhsil və Elmdə gender pariteti ........................................................... 32

# Çıxış sözü

Hörmətli dostlar, xanımlar və cənablar!

Aprelin sonu ənənəvi olaraq, Kitab, müəlliflik hüququ və əqli mülkiyyətə (ƏM) aid əlamətdar günlərdir: 23 aprel UNESCO-nun «Ümumdünya kitab və müəlliflik hüququ günüdür» (Azərbaycanda bu tarix 1997-ci ildən başlayaraq, 22-ci ildir ki, qeyd olunur) və 26 aprel ÜƏMT-nın «Beynəlxalq əqli mülkiyyət günüdür» (Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi 2001-ci ildən başlayaraq, 18 ildir ki, qeyd edir). Həmin günlərdə keçirilən müxtəlif növ tədbirlər, görüşlər, masalar, konfrans və simpoziumların əsas məqsədi əqli mülkiyyət, müəllif-hüquq mədəniyyətinin formalaşdırılması-na dəstək verməkdən, biliklər cəmiyyətində əqli mülkiyyətin kreativlik və yenilikçilik amillərinin stimullaşdırılmasında əvəzedilməz əhəmiyyətini qabarıq göstərməkdən ibarətdir.

Bu ilki tədbirlərimiz dövlətimizin memarı Ulu Öndər Heydər Əliyevin anadan olmasının 95 illiyinə və müasir, müstəqil Azərbaycanımız varis olan Azərbaycan Xalq Cümhuriyyətinin yubileyinə – 100 illiyinə həsr olunur.

Tarixin hökmü tarixi şəxsiyyətlərin çətinliklər və problemlər barədə izahını yox, çətinliklər və problemlər üzərində qələbəsini tanıyır. Bu qələbəni biz bu gün yeniləşən və qüdrətlənən Azərbaycanda, ölkəmizin nüfuzunun artmasında görürük, dövlət başçısı cənab İlham Əliyevin son 15 ildə düşünülmüş, müasirləşdirilmiş davamçılıq siyasətinin nailiyyətlərində, yaradıcılıqla keçirilən varislik xəttində görürük, Azərbaycan xalqının cənab Prezidentə olan dərin ehtiram və sevgi duyğularında görürük. Rəhbər şəxsə bu münasibətin məşhur kəlamın dili ilə desək: «İnsanlar üzərində əsl hakimiyyət yalnız onlara xidmət etməklə əldə olunur».

Bunları keçirilən Prezident seçkiləri təsdiqləyir. Müdrik Azərbaycan xalqı öz gələcəyinə böyük ilham və inamla baxır və gələcəyə aparan yol bacarıqlı əllərdədir, dövlətin taleyinin çiyinləri üzərində olmasını dərk edən məsuliyyətli rəhbərdədir, riskləri və təhlükələri mükəmməl qiymətləndirə bilən, onların qarşısında qalib çıxmaqla, mənəvi və intellektual hazırlığa malik olan idarəetmə qabiliyyəti ilə səciyyələnən cənab İlham Əliyevdədir.

Bugünkü reallıqlar Ulu öndərin qələbəsidir, onun fikir və düşüncələrinin cəmiyyətimizin ən dəyərli əqli mülkiyyətinə, ictimai rəy və varidatına çevrilməsidir.

ADR-ın 100 illik yubileyinə gəldikdə isə, dövlət başçımızın Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana verdiyi müsahibəsindəki sözləri xatırlatmaq istəyirəm: “...tarixə nəzər salanda düşünürsən, təsadüfi deyil ki, müsəlman aləmində ilk demokratik respublika məhz azərbaycanlılar tərəfindən yaradılıb. Yəni, bu hadisə xalqımızın keçmişindən, onun azadlıqsevər, məğrur və mütərəqqi xarakterindən qaynaqlanır”.

Cənab Prezident İlham Əliyev vurğulayıb ki, “Ona görə də 100 il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması bizim üçün tarixi hadisədir. Biz qanuni qürur hissi keçiririk ki, Şərqdə demokratiyanın əsasını qoyan məhz Azərbaycan xalqı olub. Demokratik respublikanın ənənələri bu gün də yaşayır və müasir Azərbaycan onun hüquqi varisidir. Siyasi islahatlar üçün qısa müddətdə çox böyük işlər görülüb. Təkcə bunu qeyd etmək kifayətdir ki, qadınlara səsvermə hüququ Avropa ölkələrinin çoxundan xeyli əvvəl verilib, bir sıra başqa mühüm qərarlar qəbul edilib. Əlbəttə, bu gün geriyə nəzər salanda birinci cümhuriyyətin banilərini minnətdarlıq hissi ilə xatırlayırıq, lakin onun aqibətindən daim ibrət dərsi almalıyıq. Bu cümhuriyyət iki ildən bir qədər az mövcud olub və biz,

əlbəttə ki, bu dərsləri unutmamalıyıq. Buna görə biz bu gün Azərbaycanın müstəqilliyini, suverenliyini, iqtisadi potensialını, beynəlxalq nüfuzunu möhkəmlətmək üçün, Azərbaycanın həmişə təkcə forma etibarilə deyil, həm də mahiyyət etibarilə müstəqil olması üçün nə mümkündürsə edirik. Düşünürəm ki, əgər birinci demokratik respublikanın əsasını qoyanlar bugünkü Azərbaycanı görə bilsəydilər, onlar bizim ölkəmizlə fəxr edərdilər”.

Hörmətli dostlar!

Dəyirmi masamızın mövzusu: “İnnovasiya və yaradıcılıqda qadınlar: dəyişikliyin aparıcı qüvvəsi”dir. Beynəlxalq Əqli Mülkiyyət Gününün bu deviz altında keçirilməsinə aid ÜƏMT-nın açıqlamasında xüsusi qeyd olunur ki, qadınlarımızın səyləri nəticəsində hər gün həyatımızı zənginləşdirən və bilik sərhədlərimizi genişləndirən yeni ideyalar, faydalı kəşflər və ixtiralar əldə edilir. Yaradıcılıq sahələrində isə (kino, musiqi, ədəbiyyat, incəsənət, moda, dizayn və s.) qadınlar daim mədəniyyət konsepsiyasının özünü yenidən dərk edərək, bədii və yaradıcılıq ifadəsinin hüdudlarının axtarışı ilə bizi yeni dünyaların icad və qavranılmasına sövq edirlər.

Həqiqətən, qadınların gözündə ideyanın da həmişə siması var və bu səbəbdən bəşər kitabının mündəricatı qadınlardır. Cənab Prezident vurğulamışdır ki, “çağdaş Azərbaycan qadını ana olmaqla yanaşı, bacarıqlı siyasətçi, dövlət məmuru, görkəmli elm xadimi, iş adamı, xalqın inanıb səs verdiyi millət vəkilidir. İndi qadınlar elm və texnologiyalar sahəsinin fəal iştirakçılarıdırlar, innovasiya və yaradıcılıqla məşğul olan qadınların sayı ildən-ilə artmaqdadır. Bu fəallıq, Azərbaycan qadınının malik olduğu tarixi ənənələrlə yanaşı, ölkəmizdə həyata keçirilən gender siyasətinin mahiyyətindən, qadınlara cəmiyyətin tamhüquqlu üzvü kimi bütün imkanlardan bərabər istifadə üçün zəruri şəraitin yaradılmasından irəli gəlir”.

Əqli mülkiyyətə gəldikdə isə, qeyd edək ki, bu fenomen heç bir zaman öz-özünü təmin edən hədəf, öz-özlüyündə abstrakt vasitə olmamışdır. Əqli mülkiyyət xidmətçi sahə kimi "mövcud biliklərdən yaranan və yeni biliklərlə nəticələnən" fenomendir. Bunun üçün biliklərin müəyyən səviyyəsi, infrastrukturu və daşıyıcılarının imkan və əzmi olmalıdır. Bu şəraitdə «biliklər cəmiyyəti»ndə, «biliklərə əsaslanan iqtisadiyyatda» ƏM-in qorunması öz növbəsində kreativlik və innovasiyaçılığın stimullaşdırılmasında, investisiyaların yaradıcılığa və yenilikçiliyə cəlb edilməsində, innovasiyalı mühitin formalaşmasında əsas vasitədir.

Xüsusilə qeyd etməliyəm ki, dövlət siyasətimizin əqli mülkiyyətin qorunmasında iki istiqamət nəzərə çarpır: fərdi kreativliyi (müəlliflik, patent hüququ) və qrup kreativliyini (folklor, ənənəvi biliklər) stimullaşdırmaq, inkişaf etdirmək və qoruyub saxlamaq.

Son 25 ildə əqli mülkiyyət fenomeni nəzərə çarpan dərəcədə inkişaf etmiş və bu gün dünyada onun fəaliyyət konteksti yarandığı vaxtdan prinsipial olaraq fərqlənir. Həm iqtisadiyyatda, həm də cəmiyyətdə ƏM-in yeri dəyişdirilərək, onu biliklərə əsaslanan iqtisadiyyatın dominantına, rəqəmsal cəmiyyətin vacib alətinə və mədəni irsin təhlükəsizliyinin təminatçısına çevirib. ƏM-in fəaliyyətinin dəyişmiş konteksti eyni dərəcədə ƏM-ə və onun roluna olan münasibətdə bizim düşüncə tərzimizin dəyişməsini tələb edir.

Yaşadığımız "biliklər cəmiyyəti" dövrü texnologiyaların sıçrayışı dövrüdür. Əhəmiyyətli texnoloji dəyişikliklər zamanıdır. Rəqəmli eranın nəticələri bütün sahələrdə yeni reallıq formalaşdırmış və rəqəmsal innovasiyalar «rəqəmsal imperativ» adlanan, yəni davranış qaydası yaradaraq, yeni tələblər irəli sürür.

Dövlət başçımızın sözləri ilə desək, «müasir dünya sivilizasiyasının tərəqqisində insan kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır. Hər bir dövləti rifah və yüksəlişə aparan yol elm və innovasiyalara əsaslanan inkişafdan keçir». Odur ki, dövlət başçısının təsdiq etdiyi «Azərbaycan 2020: gələcəyə baxış» Konsepsiyasında ƏM prioritet istiqamətlərdən biri kimi qəbul olunur və Konsepsiyanın 6 maddəsində, o cümlədən iqtisadi, informasiya, təhsil, insan kapitalı və mədəni irs bölmələrində ƏM-in inkişafdakı əhəmiyyəti qabarıq göstərilərək, xüsusi tədbirlərin həyata keçirilməsini nəzərdə tutulur.

Konsepsiyanın icrası ilə bağlı, müəllif-hüquq sahəsində islahatları uğurla yerinə yetirmək məqsədilə aşağıdakılar üzərində iş gedir:

- yaradıcı fəaliyyətin, mədəni müxtəlifliyin və yenilikçiliyin yardımı məqsədilə hüquq sahiblərinin həvəsləndirilməsinin gücləndirilməsi;
- istifadəçilərə leqal kontentin daha asan əldə edilməsi və daha çox seçim imkanlarının təmin edilməsi;
- müəllif hüququna aid yeni biznes-modellərin yaranmasının dəstəyi;
- piratçılıqla bağlı qeyri-leqal təkliflərin azalmasına xidmət edən tədbirlərin həyata keçirilməsi.

Burada iki vacib prinsiplər əsas götürülür:

Birincisi, müəllif hüququnun məqsədinə uyğun olaraq, yaradıcılığın ifadə edilməsinin yeni texnologiyalara nə təsir etməsi, nə də köhnəlmiş texnologiyalar əsasında qurulmuş biznes-modellərin qorunub saxlanmasıdır. Əksinə, əsərlərin yaradılması və yayılması ilə bağlı olan bütün yeni texnologiyalarla əməkdaşlıq etmək və bu texnologiyalar vasitəsilə yaranan mədəni mübadilədən faydalanmaq.

İkincisi, müəllif hüququna dair razılaşdırılmış təkliflər ən azı hüquqdan, qəbul olunan qanunlardan (offlayn, həm də onlayn rejimində müəllif hüquqlarının qorunması), yaradılan infrastrukturun, mədəni dəyişikliklərin və ən yaxşı biznes-modellərin birləşməsinə əsaslanmalıdır.

Dövlət başçımızın səyləri nəticəsində Azərbaycan getdikcə yeniləşir, iqtisadi islahatları reallaşdıran, iqtisadiyyatını diversifikasiya edən və innovativ inkişafa yol açan dövlətə çevrilir.

Cənab Prezident İlham Əliyev Davos İqtisadi Forumunda vurğuladığı kimi: Gələcəyimiz – innovasiyalar, texnologiyalar, yaxşı idarəetmə, şəffaflıq və sahibkarlara dövlət dəstəyindədir.

2009-cu ildən başlayaraq, Azərbaycan yuxarı-orta gəlirli ölkələr sırasındadır.Bu gün Azərbaycan özünə hörmətlə yanaşan, partnyor-dövlətlər arasında etibarlı müqabil adını qazanan, tolerantlıq və multikultural ənənələri ilə səciyyələnən bir ölkədir, nüfuzlu beynəlxalq tədbirlərin meydançasıdır.

Azərbaycan reallıqları ölkənin qlobal reytinq göstəricilərinin yüksəlməsi ilə müşayiət edilir. Dünya İqtisadi Forumunun 2017-2018-ci illər üçün Qlobal Rəqabətqabiliyyətlilik İndeksinə əsasən “Siyasətçilərə ictimai etimad” kateqoriyasında Azərbaycan dünyada 20-ci yerə yüksəlməsi iqtidarla xalq arasında böyük etimadın olduğunu göstərir və bu təsdiq olunan etimad bir tərəfdən idarəetmənin gücünü, digər tərəfdən isə ictimai-siyasi və iqtisadi sabitliyi təmin edir. Dövlət başçımızın dediyi kimi ölkədə sabitliyin mənbəyi xalqdır, onun iradəsi və eyni zamanda iqtidarın apardığı siyasətdir. Həmin beynəlxalq, nüfuzlu sənədə görə, rəqabətliyə əsasən Azərbaycan öz mövqeyini möhkəmləndirərək, 37-ci yerdən 35-ci yerə yüksəlmişdi və bu göstəriciyə görə bir sıra inkişaf etmiş ölkələri üstələyərək, MDB məkanında şəksiz liderdir. Davos İqti-

sadi Forumunun yeni elan olunan “İnklyuziv inkişaf indeksi-2018”-ə əsasən ölkəmiz inkişaf edən ölkələr arasında 3-cü yer tutmuş, bu indeks isə iqtisadi inkişafı yalnız ÜDM-in artması ilə ölçmür, üstəlik əhalinin həyat səviyyəsinin dayanıqlı artımını da göstərir.

Ölkə miqyasında aparılan islahatlar ƏM sahəsinə öz müsbət təsirini göstərir. Belə ki, Rəqabətqabiliyyətlilik İndeksinin “Əqli mülkiyyətin qorunması” alt göstərici üzrə Azərbaycan 4,8 bal toplayaraq 37-ci yeri tutur. Bununla da Azərbaycan 2016-2017-ci illərlə müqayisədə “Əqli mülkiyyətin qorunması” göstəricisi üzrə tutduğu 71-ci yerdən 34 pillə yüksələrək, MDB ölkələri sırasında lider mövqeyində möhkəmlənmişdir. Cənab Prezident İlham Əliyevin ölkədə apardığı institusional islahatlar nəticəsində Müəllif Hüquqları Agentliyi hal-hazırda dövlət başçısı tərəfindən təsis edilən, dövlət və ictimai əhəmiyyət kəsb edən, işçiləri dövlət qulluqçularına bərabər tutulan və mərkəzi icra hakimiyyəti orqanı statusunda təminatları olan, əqli mülkiyyət hüquqları sahəsinin inkişafını təmin edən, bu sahədə vahid tənzimlənməni və nəzarəti həyata keçirən və fəaliyyəti əlaqələndirən publik hüquqi şəxsdir.

Müasir dövrdə 5 qanundan, o cümlədən “ƏMH təminatı və piratçılığa qarşı mübarizə haqqında”, “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” unikal qanunlardan, 100-ə qədər normativ-hüquqi sənədlərdən ibarət olan Azərbaycanın müəllif-hüquq bazası mövcuddur. Ölkəmizin kreativ iqtisadiyyatının (müəlliflik və əlaqəli hüquqlara əsaslanan sənayemiz) ÜDM-dəki payı 5%-i ötüb, dünyanın orta səviyyəsindədir, hətta bir sıra inkişaf etmiş ölkələri geridə qoyur. Piratçılığa qarşı görülən tədbirlər nəticəsində 2005-ci illə müqayisədə piratçılığın səviyyəsi müxtəlif sahələrdə 20-30 % aşağı düşmüşdür.

Hal-hazırda Azərbaycan ÜƏMT-nın rəhbər orqanlarında təmsil olunur. Həmkarlarımızın beynəlxalq ekspert

səviyyəsində çıxış etməsi və nümayəndəmizin Müəllif hüququna dair ÜƏMT-nın Müqaviləsi Assambleyasının vitse-prezidenti seçilməsi artan nüfuzumuza dəlalət edir. Müəllif Hüquqları Agentliyi tam kompüterləşmiş, tərkibində müasir texnologiyaları və avadanlığı, SMART-təlim distant sistemi, müasir Hüquqların Təminatı Mərkəzi və Rəqəmli Hüquqların İdarə Olunması Xidməti, yeni tələblərə uyğun olan mətbəə ilə təchiz edilmiş və «Elektron Hökumət» portalına qoşulmuş, 5 növ elektron xidmətlər həyata keçirən strukturdur.

Dövlət başçısının tapşırığı ilə əqli mülkiyyət sahəsində islahatlar davam edir və cənab Prezidentin yeni sərəncamına əsasən, əqli mülkiyyətin bütün sahələrini özündə cəmləşdirən Əqli Mülkiyyət Agentliyi yaradılır. Bunlar dövlət başçısının bu sahənin institusional quruluşuna olan diqqət və qayğısının növbəti təzahürüdür.

Hörmətli dostlar!

Qadınlarımız istənilən millətin insan resurslarının çox əhəmiyyətli hissəsidir. Elm və texnologiyalar, innovasiyalar və kreativlikdə qadınlar istedad xəzinəsidir. Yenilikçilik və yaradıcılıq nəticələrini yaradan qadınlar bunları mövcud bilikləri əsasında əmələ gətirir və yeni biliklərə çevirir. Bunların əsası insanların tükənməz təbii resurslarındadır, qeyri-maddi nemətlər isə obyektivləşərək, ƏM-ə çevrilir.

Son illərdəki müşahidələr göstərir ki, gender asimmetriyasının azaldılması qadının rolunu ədalətli səviyyəyə qaldırmaqla yanaşı, iqtisadi inkişafa da səbəb olur. Bu da aydındır: yüksək savadlı qadın cəmiyyətin sosial-iqtisadi həyatında fəal iştirak etməklə, əmək bazarının rəqabətqabiliyyətliliyinin artmasına təkan verir, bu da iqtisadiyyatda öz müsbət əks-sədası ilə nəticələnir.

Söylədiklərimiz gender bərabərliyinin iqtisadi əhəmiyyətidir. Bununla yanaşı, müasir «biliklər cəmiyyəti»n-

də, «biliklərə əsaslanan iqtisadiyyatda» ƏM-in qorunması kreativlik və yenilikçiliyin stimullaşdırılmasında, investisiyaların yaradıcılığa və yenilikçiliyə cəlb edilməsində, innovasiyalı mühiti formalaşdıran əsas vasitədir. Odur ki, «bilik» cəmiyyətin səviyyəsini və ƏM-in təsirini ölçərək, ilk növbədə biliklərin və informasiyanın kommunikasiyasını, yayılması və emalını təmin edən dinamik infrastrukturun mövcudluğu nəzərə alınır, yəni ƏM-in yayılması üçün yaranan şəraitdən söhbət getməlidir.

Bununla yanaşı, innovasiya sistemlərinin keyfiyyətli fəaliyyətdə olması, biliklərin yaranması, əldə edilməsi və tələbata uyğunlaşdırılmasını təmin edən elmi və yaradıcılıq strukturlarının fəaliyyət nəticələri nəzərə alınır, yəni ƏM-in yaradılması üçün şəraitdən söhbət getməlidir.

Bundan savayı, təhsil və təlim şəraiti və səviyyəsi, peşəkar hazırlığı və təhsili olan əhalinin mövcudluğu nəzərə alınmalıdır, bir sözlə, ƏM-in keyfiyyətli istifadəsi imkanlarından söhbət getməlidir.

Və nəhayət, institusional rejim və iqtisadi stimullar nəzərə alınır, yəni ƏM-in qorunması və təminatı, hüquqi və normativ bazanın olmasından söhbət getməlidir.

Bu 4 amil, yəni biliklərin yaranması, istifadəsi, yayılması və qorunması müasir dünyada gender bərabərliyi məsələlərində mütləq nəzərə alınmalıdır.

Lakin ƏM ilə bağlı siyasətdə təəssüflər olsun ki, qadınlar kişilərlə müqayisədə hələlik geridədirlər və bu fərq tezliklə aradan qaldırılmalıdır. Bu yalnız mənəvi borc deyil, bugünkü rəqəmli dünyanın inkişafının mütləq şərtidir.

Sonrakı prezentasiyada bütün bu məsələlər işıqlandırılacaq.

Təşəkkür edirəm!

## İnnovasiya və yaradıcılıqda qadınlar: dəyişikliyin aparıcı qüvvəsi

Müxtəlif beynəlxalq təşkilatlar qadınların fəaliyyətini geniş təhlil edərək, bunlara gender bərabərliyi adını vermişlər. Məsələn, **Dünya İqtisadi Forumu hər il «The Global Gender Gap Report» hesabatını verməklə, «Gender fərqliliyi inleksi»ni (Gender Gap Index) dərc edir**. 2015-ci ildə ilk beşlikdə İslandiya, Norveç, Finlandiya, İsveç və İrlandiya daxil idilər, 2017-ci ildə isə: İslandiya, Norveç, Finlandiya, Ruanda, İsveç. **BMT «Human Development Report» nəşr edərək, burada 2 göstərici: «Gender inkişafı indeksi» (Gender Development Index) və «Gender bərabərsizliyi indeksi» (Gender Inequality Index)** açıqlanır. Misal üçün, 2015-ci ildə sonuncu reytinqə əsasən, irəlidə Sloveniya, İsveçrə, Almaniya, Danimarka və Avstriya ölkələri idi. Bu növ göstəricilər Gender bərabərliyi Avropa İnstitutu, Beynəlxalq Əmək Təşkilatı, İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının İnkişaf Mərkəzi və s. beynəlxalq strukturlar tərəfindən təqdim olunur.

# I. Gender faktorlarının iqtisadi inkişafa təsiri

Təsiri müəyyən etmək məqsədi ilə iqtisadiyyat ən vacib göstərici «iqtisadiyyatın səviyyəsi» (ÜDM-in adam başına düşən payı) «gender fərqliliyi» indeksi arasındakı asılılığa baxmalıyıq.




Mənbə: *«The Global Gender Gap Report (2015)» və «The Global Competitiveness Report» (2016-2017) Müəlliflər: N.Kochkima, Andriy Stavytskiy*

Korrelyasiya asılılığından (korrelyasiya əmsalı 0,5685) iqtisadi və gender inkişafı arasındakı aydın əlaqə müəyyən edilir və gender fərqliliyi indeksinin 1% artımı adambaşına düşən ÜDM-in 2,245 ABŞ $ artımına gətirir. Deməli, cəmiyyətin bərabərhüquqluluğu onun varlığı deməkdir və insanlar gender balansının inkişafına maraqlıdırlar.

# II. Gender faktorlarının iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə və innovativliyinə təsiri

«Rəqabətqabiliyyətlilik İndeksi» (The Global Competitiveness Index) Dünya İqtisadi Forumunun Hesabatlarında («The Global Competitiveness Report») hər il təqdim olunur və yeri gəlmişkən, qeyd etməliyəm ki, Azərbaycan son reytinqdə 35-ci yeri tutur. İqtisadiyyatın innovativliyi «İnnovativlik İndeksi» (The Global Innovation Index) ilə Kornell Universiteti, INSEAD və ÜƏMT tərəfindən hazırlanır və hər il dərc olunur. Bu göstəricilərin «Gender fərqliliyi» indeksi ilə müqayisəsi aşağıdakı kimi təsvir olunur:






**Gender fərqliliyi indeksi**

Mənbə: *«The Global Gender Gap Report (2015)» və «The Global Competitiveness Report» (2016-2017), «The Global Innovation Index (2015)»*
*Müəlliflər: N.Kochkima, Andriy Stavytskiy*

Göründüyü kimi, korrelyasiya asılılığı müvafiq olaraq, 0,4862 və 0,5508 göstəriciləri arasındakı aydın əlaqəni nümayiş etdirir. Belə ki, «gender fərqliliyi indeksinin» 0,01 bənd artırılması «qlobal rəqabətqabiliyyətlilik indeksinin» 0,07, «innovativ indeksinin» 1,18 bənd yüksəlməsinə gətirir. Bu isə cəmiyyətin gender bərabərliyinin, gender müxtəlifliyinin və açıqlığının olması rəqabətqabiliyyətliliyin və innovativliyin stimullaşdırılması deməkdir.

**III. Dünya İqtisadi Forumunun «Gender fərqliliyi İndeksi» (GFİ) və BMT-nin «Gender Bərabərsizliyi İndeksi» (GBİ)** ən nüfuzlu beynəlxalq iqtisadi struktur tərəfindən daim operativ hazırlandığına görə, onun üzərində dayanmaq məqsədə uyğundur.

a) **GFİ** 14 dəyişən vasitəsilə 4 istiqamət üzrə gender bərabərsizliyini ölçməyə qadirdir:

- iqtisadi fəallıq və imkanlar;
- təhsil;
- sağlamlıq və ömrün uzunluğu;
- siyasi fəaliyyət.

Metodikanın vacib xüsusiyyəti ondan ibarətdir ki, dünya ölkələrində gender fərqliliyi ölkənin inkişafı səviyyəsindən asılı olmayaraq, hesablanır. Gender bərabərliyinin meyarı 1 (daha dəqiq desək, 0,944-dür, çünki dünyada hər doğulan 106 oğlan uşağına 100 qız uşağı düşür), 0-1 (faizlə) bərabərsizliyi təsvir edir.

2017-ci ilin Hesabatına əsasən, reytinqdə ilk və son onluq (144 ölkə)




Bu ölkələrdə gender fərqliliyi 70%-dən artıqdır




Bu ölkələrdə gender fərqliliyi 60% və 60%-dən aşağıdır

Azərbaycanın göstəriciləri:

| Yer | İndeksin qiyməti | İqtisadi fəallıq və imkanlar | | Təhsil | | Sağlamlıq və ömrün uzunluğu | | Siyasi fəaliyyət | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | yer | qiymət | yer | qiymət | yer | qiymət | yer | qiymət |
| **96** | **0,676** | **45** | **0,717** | **91** | **0,984** | **142** | **0,941** | **131** | **0,063** |
| | 67,6% | | 71,7% | | 98,4% | | 94,1% | | 6,3% |

Göründüyü kimi, iqtisadi həyatımızda qadınların istirakı kişilərə yaxınlaşır (45-ci yer dünyada), bərabər təhsil sahəsində ehtiyatlarımız mövcuddur (91-ci yer), lakin «siyasi fəaliyyət» (131-ci yer) və sağlamlıq istiqamətində (142-ci yer) gələcək işlər çoxdur. Sonuncu altindeksin bu cür zəif olması, şübhəsiz ki, ölkəmizdə doğulan oğlan və qızların arasındakı nəzərə çarpan disbalans ilə bağlıdır. Qeyd etməliyik ki, 2016-cı ilin Hesabatında Azərbaycanın göstəriciləri (MDB məkanındakı dövlətlərlə müqayisədə) aşağıdakılar idi və ölkəmiz Cənubi Qafqazda lider mövqeyində idi.

| | Ölkə | İqtisadi altindeks | | Təhsil altindeksi | | Sağlamlıq altindeksi | | Siyasi altindeks | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | qiymət | reytinqdə yeri | qiymət | reytinqdə yeri | qiymət | reytinqdə yeri | qiymət | reytinqdə yeri |
| 1 | Moldova | 0,795 | 15 | 0,996 | 52 | 0,979 | 40 | 0,196 | 58 |
| 2 | Belarus | 0,823 | 5 | 1.000 | 29 | 0,979 | 40 | 0,146 | 80 |
| 3 | Qazaxıstan | 0,745 | 31 | 0,995 | 58 | 0,980 | 1 | 0,153 | 77 |
| 4 | Ukrayna | 0,722 | 40 | 1,000 | 26 | 0,979 | 40 | 0,098 | 107 |
| 5 | Rusiya | 0,722 | 41 | 0,997 | 45 | 0,979 | 40 | 0,066 | 129 |
| 6 | Qırğızıstan | 0,651 | 83 | 0,991 | 72 | 0,973 | 76 | 0,132 | 87 |
| 7 | Azərbaycan | 0,728 | 38 | 0,988 | 83 | 0,950 | 138 | 0,069 | 124 |
| 8 | Gürcüstan | 0,679 | 61 | 0,989 | 78 | 0,967 | 119 | 0,089 | 114 |
| 9 | Tacikistan | 0,711 | 47 | 0,937 | 118 | 0,966 | 126 | 0,104 | 102 |
| 10 | Ermənistan | 0,671 | 69 | 1,000 | 27 | 0,939 | 143 | 0,068 | 125 |

Araşdırma göstərir ki, dünya üzrə vəziyyət 2016-cı illə müqayisədə pisləşib. Belə ki, 2017-ci ildə qadın və kişilər arasındakı reytinq fərqi 68% olduğu halda, 2016-cı ildə 68,3% idi. Özü də geriləmə hər bir dörd altindeks səviyyəsində müşahidə olunur. Ekspert rəylərinə əsasən, son 10 ildə gender bərabərliyi əldə edilən irəliləyiş büdrəyib və 32% olan gender bərabərsizliyini aradan qaldırmaq üçün bir əsr zaman kəsiyi tələb olunur. DİF-in təhlilinə əsasən, cinslər arasında bərabərliyə heç bir ölkə nail olmasa da, İslandiya bu xəttə daha yaxın olaraq, gender fərqliliyini 88%-ə çatdırmışdır. G20 ölkə çərçivəsində irəlidə Fransa (11-ci yer) və Almaniyadır (12-ci yer), ABŞ isə 45-ci yerdən 49-cu yerə enmişdir, Rusiya – 121-ci yeri tutur.




Bununla yanaşı, müsbət cəhət kimi, 27 ölkənin təhsildəki bərabərsizliyin aradan götürülməsinin nəticəsidir. Ancaq sağlamlıq sahəsində bərabərliyi təmin edən ölkələrin sayı 4 ədəd azalaraq, 34-ə çatıb. Beləliklə, hər iki kateqoriyada (təhsil və sağlamlıq) 100%-lik nəticə göstərən (bərabərliyi təmin edən) yalnız 6 ölkə mövcuddur.

Qeyd edilməlidir ki, iqtisadi sahədə bərabərliyi heç bir ölkə əldə etməyib və yalnız 13 ölkə bu gender fərqinin 80%-lik xəttini fəth edib. DİF-in təhlilində göstərilir ki, ən istənilməz vəziyyət siyasi hüquqlarla bağlıdır. Belə ki, yalnız İslandiya bu bərabərsizliyi 70% artıq əldə edib.

Ümumiyyətlə qeyd edilir ki, iqtisadi sahədə gender bərabərsizliyinin 2025-ci ilə qədər 25% artımı dünya ÜDM-nin 5,3 trln. $ yüksəlməsinə gətirə bilər.

b) BMT-nin «Gender Bərabərsizliyi İndeksi»ndə (**GBİ**) dayanaraq, qeyd etməliyik ki, bu məlumat adətən 2-3 il obyektiv səbəblərə görə yubanır və odur ki, aşağıda söylədiklərimiz 2015-ci ilin verilənlərinə əsaslanır.

GBİ ölkələrin gender bərabərliyinin 3 göstəricisinə əsaslanaraq, yekun indeksini formalaşdırır:

- reproduktiv sağlamlığın qorunması;
- vətəndaş hüquqları və imkanlar;
- əmək bazarındakı.

Birinci istiqamət ana ölümü səviyyəsini və yeniyetmələrin ana olması əmsalını nəzərdə tutur. İkinci istiqamət qadın və kişilərin siyasi rəhbərlikdə təmsilini və nisbətini və qadınların orta və ali təhsil səviyyəsini göstərir. İqtisadi fəallıq isə (əmək bazarı) qadınların əmək bazarındakı səviyyəsinə əsaslanır. GBİ-nin metodikası İnsan inkişafı indeksini müəyyən edən metodikaya uyğundur və burada indeksin 0 olduğu halda tam bərabərliyi və 1 olduğu halda isə tam bərabərsizliyi işarə edir.

2015-ci ilə aid olan Hesabatda 154 ölkə arasında Azərbaycan 0,303 balla 59-cu yeri tutur və Cənubi Qafqazda lider mövqeyindədir (Ermənistan – 0,318; 62-ci yer, Gürcüstan – 0,382; 77-ci yer).

# IV. ÜƏMT-nın və UNESCO-nun materiallarında istiqamətlər üzrə gender bərabərsizliyi

Bu hissədə biz ƏM-lə sıx təmasda olan təhsil, elm və İKT sahələrindəki gender problemləri üzərində dayanacağıq. Əsas mənbəyimiz ÜƏMT və UNESCO-nun məlumatlarıdır.

**IV.1.** UNESCO-nun 2016-cı ildəki Məruzəsində qeyd olunur ki, təhsildə qadınlar və elmdə təmsil olunan araşdırıcı qadınlar arasındakı fərq «deşilən boru kəməri» vəziyyətini xatırladır.




Mənbə: *UNESCO-nun Statistik institutunun məlumat bazası, 2013-cü il*

İlk növbədə onu qeyd etməliyik ki, dünya üzrə ali təhsildəki tendensiya təhsil alan qadınların xeyrinədir. Digər tərəfdən, göründüyü kimi, qadınlar bakalavr və ma-

gistr pillələrində çox fəaldırlar və bu meyar üzrə kişiləri üstələyirlər (məzunlar sırasında qadınların payı 53%-dir), lakin doktorluq səviyyəsində qadınların payı nəzərə çarpacaq dərəcədə azalır (43%) və bu fərq elmi tədqiqatçılar – alimlər səviyyəsində özünü qabarıq biruzə verir (28%). Tədqiqatçı-alim qadınların sayı 30%-ə qədər təmsil olunduğu halda, milli və regional səviyyələrdə fərqlər vardır:

a) Belə ki, Cənubi-Şərqi Avropada (49%), Karib dənizi hövzəsində, Mərkəzi Asiya və Latın Amerikasında (44%), Ərəb ölkələrində (37%), Aİ-da (33%) nəticələr orta (30%) səviyyədən artıqdır;




b) Sovet blokunun irsi kimi, çoxsaylı ölkələrdə gender bərabərliyinin daha əlverişli olmasını UNESCO xüsusi qeyd edir.

c) Ən yüksək nəticə Boliviyada (63%), Venesuelada (56%), həmçinin yüksək gəlirli ölkələrdə (Fransa, Almaniya, Niderland) aşağı səviyyəli (25%), ən zəif nəticə isə Səudiyyə Ərəbistanında (1,4%) müşahidə olunur.

| | |
|---|---|
| Boliviya | 63% |
| Venesuela | 56% |
| Fransa | 25% |
| Almaniya | 25% |
| Niderland | 25% |
| Səudiyyə Ərəbistanı | 1,4% |

d) Maraqlı nümunə İsveçdir: burada birinci kurs qadın-tələbələrin çox yüksək payı (60%) olduğu halda, növbəti daha yüksək pillələrdə azalır (aspirantlar – 49%, tədqiqatçı-alimlər – 36%): UNESCO qeyd edir ki, bu meyl dünyada müşahidə olunur.




İsveç

e) Ali məktəblərin qadın-məzunları daha çox səhiyyədə işləyərək, burada işləyən kişilərin payını üstələyirlər. Bununla yanaşı, təbiət elmləri sahəsində orta hesabla 40-45% (İtaliya – 55%, İsveçrə – 30%, Niderland – 26%), kənd təsərrüfatı sahəsində azlıq (artmaqda olduğu halda), mühəndislikdə – azlıq, informatika sahəsində – azlıq və getdikcə azalan hissə qadınların payına düşür.

**IV.2.** Qadın tədqiqatçı-alimlər haqqında UNESCO-nun ekspert müşahidələri aşağıdakılardır:

a) Dünya miqyasında bu təbəqə azlıq təşkil edir – 43% elmlər və fəlsəfə doktoru və 28% tədqiqatçı-alimlər, özü də tədqiqatçı-alim kişilərin çoxu özəl sektorda işlədiyi halda (daha yüksək məvacib və karyera artımı imkanları), qadın təbəqəsi dövlət sektorunda çalışır. Və bu tendensiya hətta tədqiqatçı-qadınların sayı yüksək olan ölkələrdə də öz əksini tapır (məsələn, Argentinada 52% tədqiqatçı-qadınlardır, onlardan yalnız 29% xüsusi sektorda çalışır).

b) Ölkələrdən və regionlardan asılı olmayaraq, tədqiqatçı-qadınlar dəqiq elmlər, texnika, texnologiya və riyaziyyat sahələrində azlıq təşkil edirlər (yalnız Koreyada tədqiqatçı-qadınların payı 17%, mühəndislik sahəsində isə 9%-ə çatır).

c) Elm və tədqiqatlar üzrə azlıq təşkil edən qadın təbəqəsi müəyyən istiqamətlərdə kişi təbəqəsi ilə müqayisədə daha fəaldırlar (2015-ci il):

- biotexnologiya (50%);
- əczaçılıq məhsullarının istehsalı (56%);
- incə orqanik kimya (54%);
- qida kimyası (51%).

d) Aşağıdakı elmi-tədqiqat sahələrində qadın təbəqəsi zəif, demək olar ki, yox dərəcəsindədir:

- mexanik elementlərinin istehsalı (11%);
- nəqliyyat (13%);

- cihazlar (14%);
- mühərrik (15%).




e) Ən böyük problemlərdən biri tədqiqatçı-qadınların elm və ali təhsil rəhbər vəzifələrində təmsilidir:

- Elmi Şuraların və elmi idarələrin rəhbər vəzifələrində – 19%, universitet professorları – 21%, Elmlər Akademiyalarının üzvləri – 22%;
- Ali məktəblərin rektor və prorektorları – 14% (Aİ – 17%, universitetlər – 10%).

Bu vəziyyəti tənzimləmək üçün:

- Elmi tədqiqatlar və innovasiyalar üzrə Avropa komissarı 2015-ci ildə bu bərabərsizliyə nəzər salaraq, sonrakı dövrlərdə direktorlar şuralarını qadınların təmsil etməsi məqsədilə 30% kvota nəzərdə tutmaq – təlimatını vermişdir.

- UNESCO «Elmdə qadınlar» interaktiv məlumat kitabı hazırlayaraq, burada qadınların elmə açılan yolunun, elmi dərəcə qazanmağının, bilik sahəsini və iş yerini seçməsinin gender bərabərsizliyi problemlərini qabartmışdır.

# V. İxtiraçı qadın təbəqəsi

**V.1.** Hal-hazırda ÜƏMT-nın 2017-ci ilə olan məlumatına əsasən, qadınlar tərəfindən patentlərə sifarişlərin payı ümumi sifarişlərin təxminən 1/3 hissəsini təşkil edir. Mövcud olan artım dinamikası ilə gender balansını yalnız 2076-cı il üçün əldə etmək mümkündür (hazırda ən uğurlu vəziyyət Çin və Koreyada müşahidə olunur).

**V.2.** ÜƏMT-nın PCT patent qeydiyyatı sistemi (151 ölkə) vasitəsilə 2017-ci ilə olan məlumat: 29% beynəlxalq patent sifarişlərində azı bir ixtiraçı-qadının adı göstərilmişdir (1995-ci il – 17%). Akademik təsisatlarda ixtiraçı-qadınların iştirak etdiyi patent sifarişlərinin payı 50%-ə yaxındır. Gender bərabərliyinə ən yaxın olan ölkələr: Koreya (50%), Çin (49%), Polşa (40%), İspaniya (35%), Sinqapur (34%).

| | |
|---|---|
| Koreya | 50% |
| Çin | 49% |
| Polşa | 40% |
| İspaniya | 35% |
| Sinqapur | 34% |

Ən ciddi gender bərabərsizliyi sifarişlər üzrə: Almaniya – 19%, Yaponiya – 19%, İtaliya – 18%, Cənubi Afrika – 16%.

| | |
|---|---|
| Almaniya | 19% |
| Yaponiya | 19% |
| İtaliya | 18% |
| Cənubi Afrika | 16% |

**V.3.** Yaranmış vəziyyəti tənzimləmək məqsədi ilə ÜƏMT-nın apardığı tədqiqatda göstərilir ki, ixtiraçı-qadınların patent sifarişlərinin artımı mövcuddur, lakin gender fərqliliyi nəzərə çarpan dərəcədə olduğuna görə və bu prosesi tənzimləmək məqsədilə patent sifarişlərində gender məxsusluğu xüsusi olaraq qeyd edilməlidir. Bununla yanaşı, mövcud olan sifarişlər sırasında xüsusi yaradılan axtarış proqramı mexanizmi vasitəsilə adlar çərçivəsində qadınlara məxsus adların seçilməsi məqsədə uyğun sayılmışdır.

# VI. Rəqəmli gender fərqliliyi

**VI.1. İnternet istifadəçiləri** arasındakı orta hesabla fərqlilik 2016-cı ildə dünya üzrə 12% idi (Avropa 6,9%, Şimali və Cənubi Amerika 1,8%, Ərəb ölkələri 20%, Afrika 23%, Asiya-Sakit okeanı regionu 16,9%, MDB 5,1%).




Yaranan disbalans 2013-cü illə müqayisədə (11%) artmaqdadır və Beynəlxalq Elektrorabitə İttifaqının (BEİ) məlumatına əsasən, 2016-cı ildə İnternetə qoşulan kişilərə nisbətən 250 mln. az istifadəçi-qadınlar mövcud idi. Bu fərq bütün regionlarda müşahidə olunur və ən böyük fərq, göründüyü kimi, Afrika ölkələrində (23%) və ən azlıq təşkil edən fərq Şimali və Cənubi Amerika ölkələrində mövcud idi (51%).

**VI.2.** Rəqəmli gender bərabərsizliyinin səbəbləri və ölkələrin müxtəlif iqtisadi növləri üçün aşağıdakı diaqram göstərilir:



**Peterson İnstitutunun məlumatına** əsasən (2016), qadın əməyini və biliyini istifadə edən şirkətlər bazardakı payının 45%-i, yeni bazarlara çıxışı isə 70% artıq əldə etməyə qadirdirlər. Rentabelli şirkətlər qadın əməyini rəhbər vəzifələrdə 30% artımla istifadə etməklə, təmiz gəlirinin 15% artmasını təmin edirlər.

**VI.3.** Mobil telefonların qadınlar tərəfindən istifadəsi 14% kişilərin istifadəsi göstəricisindən azdır. Araşdırmalar göstərir ki, aşağı və orta gəlirli ölkələr mobil telefon istifadəsi ilə gender bərabərsizliyini azaltdığı halda 2015-2020-ci illər ərzində 170 mlrd. $ ümumi gəlir əldə etmək imkanını qazanırlar.

# VII. Azərbaycanda Təhsil və Elmdə gender pariteti

**VII.1.** Açıq təhsil əlçatımlığı




Cədvəldən göründüyü kimi, 2014-2016-cı illərdə ali məktəblərə daxil olan abituriyent-qızlar abituriyent-oğlanlarla müqayisədə üstünlük təşkil etdiyi halda (50%-dən çox), 2017-ci ildə gender pariteti ali məktəblərə daxil olan oğlanların xeyrinə dəyişib (qızlar 49,05%).

**VII.2.** Bakalavr səviyyəsini bitirənlər.



Cədvəldən göründüyü kimi, bakalavr səviyyəsini bitirən qızlar oğlanlarla müqayisədə üstünlük təşkil edirlər (51,10%).

**VII.3.** Magistraturaya daxil olanlar.




Cədvəldən göründüyü kimi, gender pariteti son 4 ildə qızların xeyrinə olmuş və 2017-ci ildə 56,44% təşkil etmişdir.

**VII.4.** Magistraturanı bitirənlər.




Cədvəldən göründüyü kimi, gender pariteti qızların xeyrinədir (56,89%) və bu tendensiya 2014-2017-ci illərdə müşahidə olunub.

Təhsil sahəsi ilə bağlı gender fərqliliyi göstərir ki, ali təhsilin hər iki pilləsində gender pariteti bakalavr-qadın və magist-qadınların xeyrinədir. Bu vəziyyət dünya üzrə tendensiyaya uyğundur, hətta magistr səviyyəsində dünya üzrə orta rəqəmləri üstələyir (56,89% 53%-ə qarşı).

**VII.5.** Gender pariteti elm və tədqiqat sahəsində aşağıdakı rəqəmlərdədir (bu məlumatlar yerli mənbələr və UNESCO-nun Gender məlumat bazasından 2016-cı il üzrə götürülüb):

| Fəlsəfə doktoru üzrə təhsil alanlar (aspirantura) | | |
|---|---|---|
| Ümumi say | Qadınlar | Kişilər |
| **2182**<br>100% | **1204**<br>55,2% | **978**<br>44,8% |

| Doktorantura | | |
|---|---|---|
| Ümumi say | Qadınlar | Kişilər |
| **541** | **242**<br>44,7% | **299**<br>55,3% |

Göründüyü kimi, aspirantura səviyyəsində qadınlar kişiləri üstələdiyi halda, doktorantura səviyyəsində vəziyyət dəyişir və kişilərin göstəricisi 10% çox qalxır.

Azərbaycanda elmi kadrların paylanması belədir:

| Elmlər doktorları | | |
|---|---|---|
| Ümumi say | Qadınlar | Kişilər |
| **1476** | **288**<br>19,5% | **1188**<br>80,5% |

| Fəlsəfə elmləri doktorları | | |
|---|---|---|
| Ümumi say | Qadınlar | Kişilər |
| 6269 | 2924<br>46,6% | 3345<br>53,4% |

Ümumiyyətlə elmi dərəcələri olan qadınların sayı 3212 və ya 41,5% təşkil edir. UNESCO-nun məlumat bazasında hazırda tədqiqatçı-qadınların payı gender nöqteyi-nəzərindən 54,8%-dir və bunların 46,2% ali təhsillidir. Deməli, təxminən 90% tədqiqatçı-qadınların elmi dərəcəsi mövcuddur.

Təhlil göstərir ki, tədqiqatçı-qadınlar ən az kənd təsərrüfatı və baytarlıq elmləri (39,72%) və mühəndislik və texnologiya elmləri sahələrində təmsil olunurlar. Bununla belə, ən çox təmsil olunduğu sahə 66,53% humanitar və incəsənətlə bağlı elmlərdir.

Beləliklə, elm və tədqiqat sahələrində təmsil olunan Azərbaycan qadınları milli tendensiyalar istisna olmaqla, UNESCO-nun verdiyi mənzərəyə uyğun gəlir.

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində hazırlanmışdır.